Available online at www.jpit.az

13 (1)
2022

Experimental Study of Machine Learning Methods in Anomaly Detection

Makrufa Sh. Hajirahimova [a], Leyla R. Yusifova [b]

[a,b,] Institute of Information Technology, Azerbaijan National Academy of Sciences, B. Vahabzade str., 9A, AZ1141 Baku, Azerbaijan

[a]hmakrufa@gmail.com; [b]yusifova863@gmail.com

ARTICLE INFO

http://doi.org/10.25045/jpit.v13.i1.02

Article history:
Received 9 September 2021
Received in revised form 9 November 2021
Accepted 5 January 2022

Keywords:
Big data
Anomaly
DoS attacks
IDS
Machine learning
Ensemble classification

ABSTRACT

Recently, the widespread usage of computer networks has led to the increase of network threats and attacks. Existing security systems and devices are insufficient in the detection of intruders' attacks on network infrastructure, and they considered to be outdated for storing and analyzing large network traffic data in terms of size, speed, and diversity. Detection of anomalies in network traffic data is one of the most important issues in providing network security. In the paper, we investigate the possibility of using machine learning algorithms in the detection of anomalies – DoS attacks in computer network traffic data on the WEKA software platform. Ensemble model consisting of several unsupervised classification algorithms has been proposed to increase the efficiency of classification algorithms. The effectiveness of the proposed model was studied using the NSL-KDD database. The proposed approach showed a higher accuracy in the detection of anomalies compared to the results shown by the classification algorithms separately.

Anomaliyaların aşkarlanmasında maşın təlimi metodlarının eksperimental tədqiqi

Açar sözlər :
Big data
Anomaliya
DoS hücum
IDS
Maşın təlimi
Klassifikasiya ansamblı

Son zamanlar kompüter şəbəkələrindən geniş istifadə şəbəkə təhdidləri və hücumlarının artmasına səbəb olmuşdur. Mövcud təhlükəsizlik sistemləri və alətləri isə hücumçuların şəbəkə infrastrukturuna olan hücumlarını aşkarlamaqda yetərli deyildir, ölçü, sürət və müxtəliflik baxımından böyük şəbəkə trafiki verilənlərinin saxlanması və analizi üçün köhnəlmiş hesab olunur. Şəbəkə trafiki verilənlərində anomaliyaların aşkarlanması şəbəkə təhlükəsizliyinin təmin edilməsində çox vacib məsələlərdəndir, həmçinin elmi tədqiqatların əsas istiqamətlərindəndir. Şəbəkə trafikində anomaliyaların aşkarlanması sahəsində kifayət qədər tədqiqatların olmasına baxmayaraq, daha dəqiq aşkarlama modellərinin işlənməsinə ehtiyac vardır. Məqalədə anomaliyaların aşkarlanmasında istifadə olunan bəzi maşın təlimi alqoritmləri analiz olunmuşdur. Kompüter şəbəkə trafiki verilənlərində anomaliyaların - DoS hücumların aşkarlanmasında maşın təlimi alqoritmlərinin istifadəsinin mümkünlüyü WEKA proqram platformasında eksperimental olaraq tədqiq edilmişdir. Təsnifatlandırma alqoritmlərinin effektivliyini artırmaq məqsədi ilə bir neçə klassifikasiya alqoritmlərindən təşkil olunmuş ansambl modeli təklif edilmişdir. Təklif olunan modelin effektivliyi NSL-KDD verilənlər bazası istifadə edilərək tədqiq olunmuşdur. Klassifikasiya alqoritmlərinin ayrı-ayrılıqda göstərdiyi nəticələrlə müqayisədə təklif olunan yanaşma anomaliyanın aşkarlanmasında daha yüksək dəqiqlik nümayiş etdirmişdir.

Экспериментальное исследование методов машинного обучения при обнаружении аномалий

Ключевые слова:
большие данные
аномалия
DoS-атак
IDS
машинное обучение
ансамбль классификации

В последнее время широкое использование компьютерных сетей привело к увеличению сетевых угроз и атак. Существующих систем и инструментов безопасности недостаточно для обнаружения атак злоумышленников на сетевую инфраструктуру, кроме того, они считаются устаревшими для хранения и анализа больших данных сетевого трафика с точки зрения размера, скорости и разнообразия. Обнаружение аномалий в данных сетевого трафика - одна из важнейших задач обеспечения сетевой безопасности, а также одно из основных направлений научных исследований. Несмотря на то, что в области обнаружения аномалий в сетевом трафике проведено значительное количество исследований, необходимо разработать более точные модели обнаружения. В статье анализируются некоторые алгоритмы машинного обучения, используемые для обнаружения аномалий. Возможность использования алгоритмов машинного обучения при обнаружении аномалий в данных трафика компьютерной сети - DoS-атак была экспериментально исследована на программной платформе WEKA. Для повышения эффективности алгоритмов классификации предложена ансамблевая модель, состоящая из нескольких алгоритмов классификации. Эффективность предложенного метода проанализирована с использованием базы данных NSL-KDD. Предложенный подход показал более высокую точность обнаружения аномалий по сравнению с результатами, показанными алгоритмами классификации при их работе в отдельности.

1. Giriş

İnternet texnologiyalarının genişlənməsi ilə kiberhücumlar daha da intensivləşmişdir. Kiberhücumların intensivliyi ənənəvi siqnatur əsaslı təhlükəsizlik vasitələrini yeni hücum növlərinə qarşı təsirsiz etmişdir (Garofalo, 2017; Hacırəhimova, 2014). Belə ki, Big data erasında şəbəkə infrastrukturuna bədəməllər tərəfindən müxtəlif növ kiberhücumlar (məsələn, spam göndərmə, botnetlər, xidmətdən imtina (DoS - Denial of Service), paylanmış xidmətdən imtina (DDoS), fişinq, zərərli proqram–viruslar və s.) nəticəsində hökumət, enerji, səhiyyə, bank və telekommunikasiya, təhsil, nəqliyyat, tədqiqat mərkəzləri və s. kimi kritik sektorlarda əksər təşkilatlar ciddi problemlərlə üz-üzə qalmışlar (Heydari et al., 2015; Almedia, 2017; Wang et al., 2018). Bu təşkilatlar müxtəlif monitorinq vasitələrindən istifadə edərək infrastrukturlarını qorumaq üçün böyük miqdarda vəsait xərcləyirlər. Lakin hücumçuların infrastruktura nüfuz etmək üçün qabaqcıl vasitələrdən istifadə etdiklərindən onları aşkar etməkdə mövcud təhlükəsizlik və loq-faylların analizi alətləri köhnəlmiş hesab edilir (Ariyaluran et al., 2019). Şəbəkədəki potensial təhlükəni aşkar etmək üçün toplanan verilənlərin anında emalı isə vacibdir. Mövcud ənənəvi monitorinq alətlərinin böyük verilənləri emal etmək imkanının olmaması səbəbindən şəbəkə infrastrukturunu davamlı izləmək və anormal davranış və təhdidləri aşkarlamaq mümkün deyildir (Raguseo, 2018).

Anomaliya, gözlənilən davranışa uyğun olmayan verilən nümunəsi olaraq təyin edilir. Anomaliyanın aşkarlanması 1987-ci ildə D.E.Denning tərəfindən təklif edilmişdir (Denning, 1987). Bu metodun əsas konsepsiyası, əvvəlcədən təyin edilmiş davranışın normal davranışla müqayisə edildiyi şəbəkənin/sistemin davranışını təyin etməkdir. Nəticə ya onu qəbul etmək, ya da əlavə araşdırma üçün həyəcan idarəetmə sistemini işə salmaqdan ibarət olacaq. Anomaliyanın aşkarlanması verilənlərin əsas hissəsindən fərqlənən və ya kənara çıxan (outlier) verilənləri (nümunələri, şablonları) aşkar etməyi hədəfləyir (Abdulhammed, 2019). Yəni anomaliyanın aşkarlanması, verilənlər bazasında mütəxəssis tərəfindən identifikasiya edilə bilməyən, gözlənilən nümunəyə uyğun gəlməyən elementlərin və ya hadisələrin müəyyən edilməsidir.

Böyük ölçü anomaliyanın aşkarlanması üçün ciddi çətinliklər yaradır. Çünki dəyişənlərin və ya əlamətlərin sayı artdıqca verilənlərin miqdarı da artır. Cisco-nun məlumatına görə illik qlobal IP trafikin 2021-ci ildə 3.3 zettabayta çatmışdır (Global - VNI Complete Forecast Highlights, 2021). Bu hal verilənlərin təhlükəsizliyi, məlumat ötürülməsi etibarlılığı və trafik anomaliyaları və hücumlarının aşkarlanması baxımından bir çox çətinliklər yaradır. Böyük verilənlərdə anomaliyaları aşkar etmək üçün ənənəvi metod/alqoritmlər kifayət qədər dəqiqliyi qoruya bilmir (Srikanth, et al., 2020; Rehman, 2016). Son illərdə anomaliyaların aşkarlanması, maşın təlimi sahəsində əsas tədqiqat mövzusuna çevrilmiş və çoxsaylı məqalələrin predmeti olmuşdur (Dua, Du, 2011; Buczak & Guven, 2016). Kompüter şəbəkəsində anomaliyalar şəbəkə trafikində qeyri-adi və əhəmiyyətli dəyişikliklər kimi başa düşülür (Garofalo, 2017). Verilənlərin daxil edilməsi zamanı insanlar tərəfindən edilən səhvlər, ölçmə cihazlarının səhvləri, verilənlərin emalı səhvləri (verilənlərlə manipulyasiya), sistemin davranışı zamanı yaranan mexaniki səhvlər və s. anomaliyaları yaradan geniş yayılmış səbəblərdəndir.

Anomaliyaları aşkarlama yanaşmasının əsas məqsədi normal trafiki təsvir etmək üçün statistik bir model qurmaqdır. Bu modeldən hər hansı bir kənara çıxmaya anomal hadisə kimi baxıla bilər və hücum kimi qəbul edilə bilər. Qeyd olunduğu kimi anomaliya, mücərrəd səviyyədə verilənlərin əksəriyyətindən fərqlənən nümunələr kimi başa düşülür. Ədəbiyyatda anomaliyaların üç tipini qeyd edirlər: nöqtə anomaliyaları (*point anomalies*), kontekstual anomaliyalar (*contextual anomalies*), kollektiv anomaliyalar (*collective anomalies*). Bu tip anomaliyalar bir çox tədqiqatlarda geniş analiz olunmuşdur (Hodge, Austin, 2004; Chandola, Banerjee, Kumar, 2009; Nassif et al., 2021; Gogoi et al., 2011).

Uzun illər öyrənilən və elmi tədqiqatların predmetinə çevrilmiş anomaliyaların aşkarlanması müxtəlif sahələrdə tətbiq olunmaqdadır. Kredit kartlar üzrə tranzaksiya verilənlərində fırıldaqçılığın (Xuan et al., 2018; Husejinović, 2020; Phua et al., 2010; Dash, & Ng, 2010; Chaudhary, Yadav., & Mallick, 2012), kompüter şəbəkələrində anomal trafiklərin

(Aliguliyev, Hajirahimova, 2019; Shon, Moon, 2007; Alguliyev, Aliguliyev, Imamverdiyev, Sukhostat, 2017; Zhang et al., 2008), şübhəli kiber aktivliyin (Ariyaluran et al., 2019), tibbi verilənlərdə anomaliyaların aşkarlanması (məs., anomal MRT təsviri və s.) (He, Wang, Graco, Hawkins, 1997; Saneja, Rani, 2017; Antal, Hajdu, 2014; Schlegl, Seeböck et al., 2017; Varian, 2020) sensor qurğuların anomal göstəricilərinin (məs., kosmik aparat sensorunun anormal göstəriciləri kosmik gəminin bəzi komponentlərində nasazlığın olduğunu göstərə bilər) (Fujimaki et al., 2005) və s. aşkarlanması Big Data analitikanın əsas məsələlərindəndir (Chandola, Banerjee, Kumar, 2005; Wang, Jones, 2017). Bu baxımdan böyük verilənlərdə şablonlara uyğun olmayan verilənlərin (və ya əvvəllər müşahidə olunmayan verilənlərin) – anomaliyaların aşkarlanması məsələsi böyük aktuallıq kəsb edir, onun qarşısını almaq xüsusi əhəmiyyət daşıyır. Şəbəkə anomaliyası, şəbəkənin təhlükəsizliyinə təsir göstərən potensial zərərli trafikdir. Bunlar həm dövlət, həm də korporativ qurumları narahat edən əsas problemlərdir, çünki maliyyə itkilərinə, şəbəkənin işinin pozulmasına səbəb ola bilər və hətta milli təhlükəsizliyi təhlükə altına ala bilər (Ariyaluran, 2019).

Bu tədqiqatın əsas məqsədi şəbəkə trafikində anomaliyaları – DoS hücumların aşkarlanmasından ibarətdir. DoS hücumlar şəbəkə, kiber infrastruktur üçün real təhlükədir (Denning, 1987; Garofalo, 2017). DoS hücumlar şəbəkə və xidmət serverlərdən, əlaqələndirici şəbəkələrdən və şəbəkə cihazlarından (marşrutlaşdırıcılar və s.) istifadə edərək xidməti iflic edə və ya ondan tamamilə imtinaya səbəb ola bilər və bu da böyük itkilərlə nəticələnə bilər. DoS hücumun reallaşdırılmasında hədəf hostun qanuni istifadəçiyə cavabını ləngitmək və ya tamamilə itirmək üçün rabitə protokollarının zəifliklərindən istifadə edilir. Bu zərərli fəaliyyət "qurban" serverinə çox sayda sorğu göndərməklə həyata keçirilir.

Məqalədə böyük şəbəkə verilənlərində anomaliyaların – DoS hücumların aşkarlanmasında bir neçə maşın təlimi alqoritmləri NSL-KDD verilənlər bazası (NSL-KDD) üzərində test edilmiş və klassifikasiyanın effektivliyini artırmaq məqsədi ilə klassifikasiya ansamblı modeli təklif edilmişdir.

Məqalənin sonrakı hissəsi aşağıdakı kimi təşkil edilmişdir. İkinci bölmədə əlaqəli işlər icmal olunmuşdur. Üçüncü bölmədə təklif olunan yanaşmanın metodologiyası təsvir edilmişdir. Dördüncü bölmədə təklif edilmiş yanaşma eksperimental olaraq yoxlanılmış və ekperimentin nəticələri müzakirə olunmuşdur. Beşinci bölmədə tədqiqat üzrə nəticələr ümumiləşdirilmişdir.

2. Əlaqəli tədqiqatlar

Bu bölmədə anomaliyaların aşkarlanması sahəsində mövcud tədqiqatların müasir vəziyyəti icmal olunur. Qeyd etmək lazımdır ki, anomaliyaların aşkarlanması istiqamətində həm icmal xarakterli (Hodge, Austin, 2004; Agrawal, Agraüal, 2015; Chandola, Banerjee, Kumar, 2005; Srikanth, Philip, Jiong et al., 2020; Gupta, Gao, Aggarwal, Han, 2014; Nassif et al., 2021; Patcha, Park, 2007), həm də çoxsaylı yeni tədqiqatlar mövcuddur (Ariyaluran, 2019; Aliguliyev, Hajirahimova, 2019); Sukhostat et al, 2018; Akoglu et al., 2015; Wei et al., 2019; Aggarval, 2005).

Uzun illər müdaxilələrin aşkarlanması sistemləri (İntrusion Detection Systems- IDS) şəbəkə administratorlarına çox dəstək olmuşdur (Akbar, 2010). Müdaxilələrin aşkarlanması sahəsində iki yanaşma müşahidə olunmaqdadır: siqnatura əsaslanan sui-istifadənin aşkarlanması (*misuse detection*) və anomaliyaların aşkarlanması (*anomaly detection*) (Mukherjee, Heberline, Levitt, 1994). Sui-istifadənin aşkarlanmasının əsas ideyası hücumları şablonlar və ya siqnatur şəklində təqdim etməkdir.

Məlumdur ki, IDS-lərin çoxu təhlükəsizlik ekspertləri tərəfindən təyin edilən çoxsaylı qaydalara əsaslanır (Tsai et al., 2009). Məlum olmayan yeni hücumların aşkarlanmasının çətin olması bu yanaşmaların əsas çatışmayan cəhətlərindəndir. Eyni zamanda şəbəkə trafikinin həcmi böyük olduğundan, qaydaların kodlaşdırılması ləng gedir, çox vaxt sərf olunur, ekspert biliklərindən asılılıq yaranır və s. Anomaliya aşkarlama üsulları isə yüksək səviyyədə saxta həyəcan siqnalları istehsal edir (Zhang et al., 2008). IDS-lərin bu kimi məhdudiyyətlərini aşmaq və yeni müdaxilələri, normal və anomal şəbəkə trafikini daha dəqiq aşkar etmək üçün intellektual analiz metodları tətbiq edilmişdir (Lee, Stolfo, Mok, 2000; Agarwal, Mittal, 2012).

Paylanmaya, yaxınlıq ölçüsünə əsaslanan, parametrik, qeyri parametrik statistik metodlar anomaliyaların aşkarlanmasında ilkin metodlardan hesab olunur (Chandola, Banerjee, Kumar, 2005). Statistik metodlara əsaslanan anomaliya aşkarlama sistemləri iki mərhələdən təşkil olunur. Əvvəlcə sistem şəbəkə trafikinin bir və ya bir neçə statistik əlamətini müşahidə edir və toplayır, daha sonra davranış dəyişikliklərini aşkar etmək üçün stoxostik bir metoddan istifadə edərək mövcud vəziyyəti saxlanılan vəziyyətlə müqayisə edir. Burada əsas məsələ tez-tez hədəf hostlarda yerləşdirilən botlar vasitəsilə həyata keçirilən DoS, fişinq və spam kimi müxtəlif növ zərərli proqramların düzgün aşkarlanmasıdır. Bu problemlə üzləşməmək məqsədi ilə Ensemble Empirical Mode Decomposition alqoritmindən istifadə edən bir anomaliya aşkarlama metodu təklif edilmişdir (Marnerides et al., 2015).

Son zamanlar isə anomaliyaların dəqiq identifikasiya olunmasında maşın təlimi (*machine learning -ML*) və dərin təlim (*deep learning*) metodları geniş tətbiq olunmaqdadır (Goldtein, Abdulhammed, Buczak, 2016). ML, 1959-cu ildə Arthur Samuel tərəfindən "açıq şəkildə proqramlaşdırma olmadan kompüterlərin öyrənməsini təmin edən bir təlim sahəsi" olaraq müəyyən edilmişdir (Samuel, 1959). Yəni ML, açıq şəkildə proqramlaşdırma əvəzinə seçilmiş nümunə verilənlərə (və ya keçmiş təcrübəyə) əsaslanan iterativ öyrənmə yolu ilə gizli korrelyasiya qanunauyğunluqlarını aşkar etməyə imkan verir. Qeyd etmək lazımdır ki, ML metodlarının təlimə əsaslan, təlimsiz və yarımtəlimli tipləri mövcuddur (Chandola, Banerjee, Kumar, 2005; Schlegl, et al., 2017).

Zhang və digərləri IDS-lərin problemlərini həll etmək üçün, qaydalara əsaslanan (ruled-based), xüsusilə yeni müdaxilələri aşkar etmək üçün təlimsiz təsadüfi meşələr (random forests) maşın təlimi alqoritmi tətbiq etmişlər (Zhang et al., 2008).

Camacho və digərləri məhkəmə sistemləri şəbəkəsindəki anomaliyaları aşkar etmək, qeyri-adi davranışları müəyyənləşdirmək və şərh etmək üçün böyük verilənlərin dörd əlamətini (həcm, müxtəliflik, etibarlılıq və sürət) nəzərə alaraq bir yanaşma təqdim etmişlər (Camacho et al., 2014). Həm qeyri-müəyyənliyi (aşağı doğruluq), həm də yüksək ölçü problemini aradan qaldırmaq üçün Əsas Komponent Analizi (Principal Component Analysis - PCA) tətbiq olunmuşdur. Müəlliflər PCA-nın verilənlər bazalarındakı ölçüyə (müşahidələrin sayına) görə hesablama probleminin qarşısını alan və paralelliyə imkan verən nüvə hesablamasından istifadə etmişlər. Ölçü həddindən artıq olduqda iyerarxik modellər də təklif olunmuşdur. Nəhayət, verilənlər axınlarını təhlil edərkən yüksək sürəti təmin etmək üçün Exponentially Weighted Moving Average (EWMA) yanaşması tətbiq olunmuşdur.

Anomaliyaları aşkarlamaq üçün hibrid metodlar da təklif olunmuşdur (Agarwal, Mittal, 2012; Kim et al., 2014; Shon, Moon, 2007). *B.Agarwal* və həmkarı şəbəkə əlamətləri entropiyasının və dayaq vektorları metodu (Support Vector Machine - SVM) alqoritmlərinin birləşməsindən ibarət hibrid metod təklif etmişlər (Agarwal, Mittal, 2012). Nəticədə entropiya əsaslı aşkarlama metodunun şəbəkədəki anomaliyaları SVM əsaslı aşkarlama sistemindən daha yaxşı müəyyən etdiyi sübut edilmişdir.

Küylü verilənlərin təsirini minimuma endirməklə, daha böyük verilən qruplarında aşkarlama dəqiqliyini yaxşılaşdırmaq üçün MSD (Mean and Standard Deviation) statistik metodu və k-means öyrənmə metodunun kombinasiyasından ibarət yeni bir aşkarlama alqoritmi (MSD - k-means) təklif edilmişdir (Wei et al., 2019). MSD-k-means-də iki mərhələ var: 1) verilənlərdə səs-küylü verilənləri aradan qaldırmaq üçün MSD alqoritminin tətbiqi; 2) lokal optimal klasterlər əldə etmək üçün k-means alqoritminin tətbiqi. MSD-k-means-də digər metodlarla müqayisədə daha yüksək dəqiqlik əldə olunmuşdur.

Şəbəkə anomaliyalarını aşkarlaya bilən k-means klasterləşmə alqoritminə əsaslanan yanaşmalar da təklif edilmişdir (Münz, 2007), (Kumari et al., 2016). Münz şəbəkə axın yazılarını ehtiva edən təlim verilənlərini normal və anormal trafik qruplarına ayırmaq üçün k-means alqoritmini tətbiq etmişdir. Kumari və həmkarları Apache Spark analitik alətindən istifadə edərək k-means klasterləşmə əsasında kiber-hücumların qarşısını almaq üçün metodologiya təqdim etmişlər.

Məlumdur ki, hesablama sistemləri ölçüsü, sürəti və müxtəlifliyinə görə böyük verilənlərin saxlanması, emalı və analizində məhdudiyyətlərə malikdir. Bu məhdudiyyəti aradan qaldırmaq

məqsədi ilə anomaliyanın aşkarlanması üçün çəkili klasterləşməyə əsaslanan optimallaşdırma yanaşması təklif edilmişdir (Alguliyev, Aliguliyev, İmamverdiyev, Sukhostat, 2018; Alguliyev, Aliguliyev, İmamverdiyev, Sukhostat, 2017). Hər bir nöqtənin çəkisi onun bütün verilənlər toplusundakı mərkəzə nəzərən mövqeyinə görə təyin edilmişdir. Yeddi böyük ölçülü verilənlər bazasından istifadə etməklə aparılmış eksperimentlərdə təklif olunan çəkili klasterləşmə alqoritmi k-means alqoritmi ilə müqayisədə anomaliyaları daha dəqiq aşkarlamağa müvəffəq olmuşdur. Artan hesablama mürəkkəbliyi və verilənlərin müxtəlifliyi səbəbindən hər növ anomaliya üçün bir vasitə seçmək çətindir. İkinci tədqiqatda isə klasterləşmə üçün təkmilləşdirilmiş optimallaşdırma yanaşması təklif edilmişdir (Alguliyev, Aliguliyev, İmamverdiyev, Sukhostat, 2017). Üç verilənlər bazası (Avstraliya kredit kart tətbiqləri, ürək xəstəlikləri üzrə baza və NSL-KDD bazası) üzərində aparılan təcrübə nəticələri təklif olunan alqoritmin k-means alqoritmi ilə müqayisədə anomaliyaları daha dəqiq aşkarladığını göstərmişdir.

Maliyyə sektoru fırıldaqçılığın aşkarlanması (Chaudhary, 2012; Phua et al., 2010) və tranzaksiya əməliyyatlarının işlənməsi (Dash & Ng, 2010) daxil olmaqla böyük verilənlərin analitikasından aktiv şəkildə istifadə edir. Saxta sui-istifadə hallarında artan kart ödəmə problemi bank ödənişləri və ödəniş xidməti təminatçılarının diqqət mərkəzində durur. Belə ki, tez-tez kredit kartı fırıldaqçılığı hadisələri baş verir və sonu böyük maliyyə itkiləri ilə nəticələnir. Cinayətkarlar digər insanların kredit kartlarının məlumatlarını oğurlamaq üçün Troyan və ya fişinq kimi bəzi texnologiyalardan istifadə edirlər (Xuan et al., 2018; Husejinović, 2020). Normal və anormal əməliyyatların davranış əlamətlərini öyrətmək üçün Xuan və həmkarları təsadüfi meşə alqoritmindən istifadə etmişlər (Xuan et al., 2018). *Husejinović* isə öz tədqiqatında fırıldaqçılıq əməliyyatlarının nəticələrini proqnozlaşdırmaq üçün Naive Bayes, C4.5 qərar ağacı və Bagging ansambl maşın öyrənmə alqoritmlərindən istifadə etmişdir. Fırıldaqçılıq əməliyyatlarının proqnozlaşdırılmasında C4.5 qərar ağacı alqoritmi digərləri ilə müqayisədə daha dəqiq proqnoz (92.74%) sərgiləmişdir.

Başqa bir tədqiqatda DoS hücumların aşkarlanması üçün məhdud Boltsmann maşınına (restricted Boltzmann machine - RBM) əsaslanan dərin təlim metodu tətbiq olunmuşdur (Imamverdiyev, Abdullayeva, 2018). DoS hücumu aşkarlama dəqiqliyini artırmaq üçün RBM-in görünən və gizli qatları arasına yeddi qat əlavə olunmuşdur. DoS hücumun aşkarlanmasında dəqiq nəticələr təklif olunan dərin RBM modelinin hiperparametrlərinin optimallaşdırılması ilə əldə edilmişdir.

3. Təklif olunan yanaşma

Məsələnin qoyuluşu. Fərz edək ki, şəbəkə trafikini əks etdirən $D = \{x_1, x_2, ..., x_n\}$ verilənlər bazası verilmiş və $M = \{m_1, m_2, ..., m_k\}$ sayda klassifikasiya alqoritmləri seçilmişdir. Şəbəkədə zərərli trafiklərin (DoS hücumların) yüksək dəqiqliklə aşkarlanması tələb olunur.

Tədqiqatın metodologiyası. IDS-lərin işinin səmərəliliyinin artırılması üçün kompüter şəbəkəsi trafikində anomaliyaları – DoS hücumları aşkarlamağa imkan verən klassifikasiya ansamblı modeli təklif edilir. Maşın təlimi ansamblı modelini yatarmaq üçün sadəlövh bayes (NaiveBayes – NB), qərar ağacı (Decision tree – DT), təsadüfi meşə (Random Forest RF), Support Vector Machine – SVM, çoxlaylı perseptron (Multilayer Perceptron), K-ən yaxın qonşu (K-Nearest Neighbor – KNN) kimi baza klassifikatorlar seçilmişdir. Bu klassifikatorların qısaca şərhini verək:

Naive Bayes modelində obyektin hansı sinfə aid olması ehtimalı Bayes teoreminə əsasən hesablanır (Yang et al., 2016). Bayes teoreminin mahiyyətində şərti ehtimal dayanır. Şərti ehtimal – bir hadisənin baş verdiyi nəzərə alınmaqla digər bir hadisənin baş vermə ehtimalı kimi başa düşülür. Naive Bayes klassifikatoru istifadə etdiyi n sayda əlamətlərin şərti olaraq bir-birindən asılı olmadığını nəzərdə tutur. Başlanğıcda verilən hər bir əlamətin şərti ehtimalı hesablanır, sonra nümunənin sinif etiketini proqnozlaşdırmaq üçün Bayes teoremi tətbiq olunur. Bayes teoreminin riyazi ifadəsi düstur 1-də verilmişdir.

$$P(A|B) = \frac{P(B|A) * P(A)}{P(B)} \qquad (1)$$

Burada, P (A) – A hadisəsinin baş vermə ehtimalıdır. P (A | B) – B baş verdiyi halda A-nın başvermə ehtimalıdır. P(B|A) – A baş verdiyi

halda B-nin başvermə ehtimalıdır. P(B) – B hadisəsinin başvermə ehtimalıdır.

Qərar ağacı (decision tree - DT) keçən əsrin 80-ci illərində təklif olunmuş ağac strukturlu klassifikatordur, kök, budaqlar və yarpaqlardan ibarətdir. Kök – ağacın başladığı yerdir. O, bütün verilənlər bazasını göstərir və sonradan iki və daha çox budağa ayrılır. Budaqlar verilənlər bazasındakı əlamətləri, yarpaqlar sinif nişanlarını göstərir. Qərar ağacı sual/cavab əsasında budaqlara bölünür. Qərar ağacı təsnifat və reqressiya təhlili üçün qeyri-parametrik təlim metodudur. Qərar ağacı iki mərhələdən – öyrənmə və proqnozlaşdırma mərhələlərindən ibarətdir. Model təlim prosesində verilmiş təlim verilənləri istifadə edərək öyrədilir və proqnoz mərhələsində göstərilən test verilənlərinin nəticəsini proqnozlaşdırmaq üçün istifadə olunur (Dewan et al., 2010). Qeyd etmək lazımdır ki, qərar ağacının realizasiyası zamanı əsas məsələlərdən biri də kök qovşaq və ya altqovşaqlar üçün vacib atributun seçilməsidir. Problemin həllində iki geniş yayılmış atribut seçmə metodu mövcuddur: Information Gain; Gini Index.

Təsadüfi meşələr (Random Forests – RF) 2000-ci illərin əvvəllərində L.Breyman tərəfindən təklif edilmiş, qərar ağacları ansamblı əsasında qurulur (Breyman - 2001). Təsadüfi adlanmasının səbəbi odur ki, ixtiyari ağacın qurulmasında bütün əlamətlər deyil, ancaq təsadüfi seçilmişlər iştirak edir. Yəni RF verilənlərin təsadüfi altçoxluğundan təşkil olunmuş bir neçə qərar ağacı yaradır. Məqsəd klassifikasiyanın dəqiqliyini artırmaqdır. Göründüyü kimi alqoritm iki mərhələdə aparılır: əlamətlərin seçilməsi və təsnifatlandırma. Obyekt daha çox ağacın səs verdiyi sinfə aid edilir. Yəni yekun qərar ağacların qərarlarının aqreqasiyası əsasında yaradılır, mojaritar səsvermə ilə müəyyən edilir. RF DoS hücumlarla yanaşı Probe, U2R & R2L kimi hücumların, eyni zamanda botnetlərin yüksək dəqiqliklə aşkarlanmasında da istifadə olunur (Farnaaz & Jabbar, 2016). Qeyd etmək lazımdır ki, böyük verilənlərlə işləyərkən RF böyük hesablama zamanı tələb edir.

K-ən yaxın qonşu (K-Nearest Neighbor – KNN) – sistemə daxil olan yeni obyektin sinfini təyin etmək üçün istifadə edilən maşın təlimi alqoritmidir. Daxil olan hər yeni obyekt üçün siniflərdən birinə aid olan k sayda yaxın obyekt (qonşu) müəyyən edilir. KNN alqoritmi, ümumiyyətlə təsnifat və reqressiya problemləri üçün istifadə olunan qeyri-parametrik üsuldur. (Zhang, Zhou, 2015; Wauters et al., 2017). Bu alqoritmdə K parametrinin düzgün seçilməsi və yaxınlıq metrikası probleminin həlli önəmlidir. Həndəsi olaraq obyektlər arasındakı məsafəni ölçmək üçün, ədəbiyyatlarda müxtəlif məsafə funksiyaları (Evklid məsafəsi, Minkovski, kosinus məsafəsi) istifadə edilməkdədir. Ən çox istifadə edilən Evklid məsafəsi funksiyasının (*düstur 2*) istifadə edildiyi halda yeni obyektdən bu sinfə aid olan k sayda obyektə olan məsafələrin cəmi hesablanır. Yeni obyekt ən kiçik məsafəyə malik olan sinfə aid edilir.

$$dist(x,y)=\sqrt{\sum_{i=1}^{m}(x_i-y_i)^2} \qquad (2)$$

Burada x və y – m sayda əlamətə malik giriş vektorlarıdır. Qeyd etmək lazımdır ki, fərqli əlamətlər, ümumiyyətlə fərqli ölçülərlə ölçüldüyündən məsafə funksiyasını tətbiq etməzdən əvvəl normallaşdırılmalıdır.

Dayaq vektorları metodu (Support Vector Machine - SVM) statistik öyrənmə nəzəriyyəsi əsasında yaradılmış ən etibarlı proqnoz metodlarındandır, V.Vapnik və A. Çervonenkis tərəfindən təklif edilmişdir. Təsnifatlandırma və reqressiya məsələlərində geniş tətbiq olunan binar xətti klassifikatordur. Fərz edilir ki, təlim toplusu (x_i, y_i) elementlərindən ibarətdir, burada x – əlamətlər vektoru, y isə ona uyğun sinif nişanıdır: $y \in \{+1,-1\}$. Elə hipermüstəvi tapmaq lazımdır ki, o, $y_i=1$ $y_i=-1$ nöqtələrini ayırsın və təlim çoxluğunun ən yaxın nöqtələrindən maksimal məsafədə keçsin. $w\cdot x-b=0$ əlamətlər fəzasını siniflərə bölən hipermüstəvini təsvir edir. Burada w, hipermüstəvinin normal vektorudur. Əgər w vektorunun x_i ilə skalyar hasili b-nin icazə verilən qiymətindən böyükdürsə, $w\cdot x_i > b \Rightarrow y_i=1$, onda nöqtə birinci kateqoriyaya, kiçikdirsə, $w\cdot x_i < b \Rightarrow y_i=-1$, ikinci kateqoriyaya aiddir (Carlos et al., 2012; Erfani et al., 2016).

Multilayer Perceptron (MLP). MLP, çoxlaylı (birdən çox) perseptron süni neyron şəbəkə sinfinə

aiddir. Məlumdur ki, süni neyron şəbəkələr bioloji neyron şəbəkələrinin simulyasiyası əsasında yaradılıb. Neyronlar, bu şəbəkələrdə əsas hesablama komponentidir. MLP ən az üç laydan ibarətdir: giriş layı, gizli lay və çıxış layı. Giriş layı istisna olmaqla, hər bir qovşaq qeyri -xətti aktivasiya funksiyasından istifadə edən bir neyrondur. Giriş layı hər bir neyronun əlamət vektorunun bir elementinə uyğun gələn giriş əlamət vektorlarından ibarətdir.

